


# Şamaxı:

# Hər sahədə inkişaf, hər yanda tərəqqi

❒ ***Son zamanlar ölkəmizdə həyata keçirilən çoxsaylı sosial və iqtisadi layihələrin hamısı bütün bölgələrdə özünəməxsus şəkildə əks-səda verir. Şahidi oluruq ki, istənilən dövlət məmuru, sahibkar, fermer, lap elə ən sadə vətəndaş belə dövlətin qarşıya qoyduğu vəzifələrin layiqincə icra edilməsinə öz töhfəsini verməyə çalışır. Qeyri-neft sektorunun inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi, ənənəvi kənd təsərrüfatı sahələrinin yenidən dirçəldilməsi, əhaliyə göstərilən xidmətlərin zamanın tələbləri səviyyəsində müasirləşdirilməsi və bu kimi digər məsələlərin hamılıqla icrası günümüzün reallıqlarıdır. Ölkənin həm ərazi, həm də iqtisadi baxımdan ən böyük rayonlarından olan Şamaxıda da bu reallıqların genişmiqyaslı əks-sədası ilə tanış olduq. Adıçəkilən sahələrin elə biri yoxdur ki, şamaxılılar orada uğurlara imza atmasınlar.***

Rayon icra hakimiyyətinin başçısı Asif Ağayevlə söhbətimizdə həmin uğurların bir çoxu barədə eşitdik. Asif müəllim əvvəlcə qeyd etdi ki, "Şamaxı inkişaf edir", "Şamaxılılar uğurlara imza atırlar" kimi ifadələr gündəlikdəki məsələnin mahiyyətini kiçiltmiş olur. Çünki "Ölkənin ümumi inkişafı fonunda Şamaxı da inkişaf edir" və ya, "Şamaxılılar respublikadakı böyük tərəqqi fonunda uğurlara imza atırlar"-- desək, fəaliyyətimizin həqiqi miqyasını ifadə etmiş olarıq. Əgər hansısa işə, əmələ qiymət vermək istəyiriksə, bu əməlin haradan başlanıb, harada qurtardığını deməyə ehtiyac var.

Ölkəmizin həyatında uğurlarla dolu olan 2017-ci il Şamaxı üçün də yaddaqalan fakt və rəqəmlərlə zəngindir. Çünki qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlirlər. İlin geridə qalan aylarında rayonda 76,6 milyon manat dəyərində ümumi məhsul buraxılışı olub ki, bunun da 3, 3 milyon manatı sənaye məhsuludur. Əsas kapitala yönəldilən investisiyaların həcmi 5,6 milyon manat təşkil edib. Pərakəndə əmtəə dövriyyəsi 113,6 milyon, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 24,7 milyon manat olub.

Əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması məqsədilə tədbirlər davam etdirilir. Təkcə bu il rayonda 1992 daimi iş yeri açılıb. 2003-cü ildən indiyədək isə rayon üzrə 18 min 111 iş yeri yaradılıb ki, bunun da 15 min 440-ı daimidir.

Təbii ki, Şamaxının iqtisadiyyatında kənd təsərrüfatı sahəsi əsas yer tutur. Görülən tədbirlər nəticəsində bu il həmin sahədə 22,8 milyon manatlıq məhsul istehsal edilib ki, bunun da 69,8 faizi heyvandarlıq məhsullarının payına düşür. Ölkədə ərzaq bolluğu yaratmaq və investisiyanın cəlbi məqsədi ilə rayon ərazisində yaradılmış aqroparklarda xeyli iş görülüb. "Kürdəmir süd emalı zavodu" MMC-də 2000 başlıq maldarlıq kompleksinin və 80 yerlik otelin tikintisi davam etdirilir. Müəssisədə əkilmiş 1432 hektar sahənin suvarılması müasir qaydalara uyğun olaraq pivot və damcı üsulu ilə həyata keçirilir. "Agro Dairy" və "Agro Fresh" MMC-də 1843 hektar şum çıxarılıb, əraziyə işıq, qaz və su xətlərinin çəkilməsi layihələndirilir.



Hazırda həmin müəssisələrdə əkin üçün torpaq sahələrinin seçilməsi məqsədilə torpaqların topoqrafik işləri aparılmaqla analizlər götürülür. Meysəri kəndinin ərazisində fəaliyyət göstərən "Şirvan şərabları" müəssisəsi tərəfindən inzibati binanın, şərab emalı zavodunun, hazır məhsul üçün nəzərdə tutulan anbarın və iaşə obyektinin tikintisi davam etdirilir. Ərazidə 500 başlıq maldarlıq kompleksinin tikintisi də nəzərdə tutulur. "Sobsan" boyaları müəssisəsi 70 hektar sahədə üzüm bağı salıb. "Avromed" şirkətinə regional baza yaratmaq üçün sərəncam verilib. Bundan əlavə, fiziki şəxs tərəfindən 150 otaqlı 5 ulduzlu otelin tikintisi üçün Məlhəm bələdiyyəsi ərazisindən 17 hektar sahə ayrılıb.

Həmsöhbətim yada saldı ki, keçən əsrin 70-80-ci illərində Şamaxı Azərbaycanın ən böyük üzümçülük rayonlarından birinə çevrilmişdi. Hazırda bu sahənin inkişafına xüsusi diqqət göstərilir. Bu baxımdan dövlət başçısının tapşırığı ilə hazırlanan və qəbul edilən "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın bu sahənin yenidən dirçəldilməsində mühüm rolu vardır.

Hazırda rayonda üzümçülük yeni inkişaf dövrünü yaşayır. Fermerlər tərəfindən yeni üzümlüklər salınaraq, bu gəlirli sahə 1640 hektara çatdırılıb. Bundan əlavə, Meysəri kəndinin ərazisində yerləşən "Şirvan şərabları" müəssisəsində 96 hektar üzüm, 40 hektar isə meyvə bağı salınıb. Hazırda həmin müəssisədə üzüm və meyvə bağlarının becərilməsi davam etdirilir.

Tarixi şəhər olan Şamaxının abadlaşdırılması və yenidən qurulması, sosial problemlərin həll edilməsi uğurla davam etdirilir. Bu il də həmin proses diqqət mərkəzindədir. Şəhərin mərkəzində yerləşən 20 Yanvar parkının yenidən qurulması və əsaslı təmir işləri davam etdirilib. Parkda yeni layihəyə əsasən piyada səkiləri, 3300 kvadratmetr ərazidə yaşıllıq salınıb. Hazırda parkda tikinti və abadlıq işləri yekunlaşmaq üzrədir.

Öyrəndik ki, şəhərin H.Əliyev, S.Ə.Şirvanı, Gənclər və Şirvan küçələrində yerləşən 8 çoxmənzilli yaşayış binasında təmir işləri aparılıb. Ağsu istiqamətinə çıxışda abadlıq və tikinti işləri davam etdirilir. Həmin ərazidə 1200 metr məsafədə piyada səkisi və 10 min kvadratmetrdən artıq asvalt- beton örtüyü salınıb. 220 şagird yerlik Meysəri kənd orta məktəbinin tikintisi sürətlə davam etdirilib. Rayonun Əngəxaran, Çuxuryurd və Nağaraxana kəndlərinin mərkəzi küçələrində ötən ildən başlanmış tikinti və abadlıq işləri davam etdirilir. Küçə boyu barılar üzlənir, dəmir barmaqlıqlar quraşdırılır, bardürlər qoyulur, piyadalar üçün yeni səkilər tikilir, evlərin və inzibati binaların fasad hissələri rənglənir və dam örtükləri yenisi ilə əvəz edilir. Yeni işıqlandırma dirəkləri quraşdırılır. Hazırda Çuxuryurd və Nağaraxana kəndlərinin mərkəzi küçələrində abadlıq işləri sürətlə davam etdirilir.

Məlum məsələdir ki, Şamaxının iqtisadiyyatında turizmin də rolu



böyükdür. Ona görə də bu məsələ daim diqqət mərkəzindədir. Məsələn, rayonun ən qədim kəndlərindən biri olan Dəmirçi kəndində turizmin inkişafı məqsədi ilə çox böyük quruculuq, abadlıq və yenidənqurma işləri həyata keçirilir. Belə ki, kəndin giriş hissəsində 10 metr hündürlüyü olan rəmzi qala və kəndin çayla sərhədində hasarın, misgərlik və dəmirçi emalatxanasının, çayxana və yay çayxanasının, iki ədəd təndirxananın və suvenir mağazasının tikintisi davam etdirilir. Həmin ərazidə məscidin tikintisi nəzərdə tutulur. Bundan əlavə, kəndin mərkəzi küçəsində 500 kvadratmetr əraziyə çay daşı döşənilib, evlərin dam örtükləri dəyişdirilib və küçə boyu sakinlərin hasar və təndirxanaları təmir edilib. Bundan başqa, hazırda Pirqulu zonasında müasir standartlara cavab verəcək yeni turizm obyektlərinin tikintisi davam etdirilir.

Daha çox turist cəlb etməyin əsas şərtlərindən biri də müasir yolların olmasıdır. Şamaxının bu baxımdan da bəxti gətirib. Belə ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 14 min nəfər əhalisi olan Göylər-Quşçu yolunun əsaslı təmiri və yenidən qurulması üçün "Azəravtoyol" ASC-yə 3,9 milyon manat vəsait ayrılıb. Hazırda adıçəkilən yolda təmir işləri sürətlə davam etdirilir və ilin sonunda istifadəyə verilməsi nəzərdə tutulur. Bundan başqa, 55 kilometrlik Şamaxı-Göylər-Çöl Padar avtomobil yolunun tikintisi davam etdirilir. Artıq yolun 48 kilometri təmir edilərək asfalt-beton örtüyü vurulub. Pirquludan Dəmirçi kəndinə gedən avtomobil yolunda da təmir işləri aparılır. Kəndin qarşısından keçən Pirsaat çayının üzərində körpünün tikintisi başa çatdırılaraq əhalinin istifadəsinə verilib.

Xatırladaq ki, turizmin inkişafı məqsədi ilə rayon icra hakimiyyətinin sifarişi ilə Şamaxının Dəmirçi kəndindən İsmayıllı rayonunun Lahıc kəndinə yeni 22 kilometrlik avtomobil yolunun tikintisi davam etdirilir. Üç kilometrdən çox olan Çarhan-Adnalı yolu əsaslı təmir edilib. İntensiv yağan yağışlar nəticəsində torpaq sürüşmələrinə məruz qalmış Bakı-Şamaxı-Yevlax və Şamaxı-Çuxuryurd-Qızmeydan avtomobil yollarında nəqliyyatının hərəkəti üçün təhlükə yaranmışdı. Sürüşmə nəticəsində yaranmış torpaq kütləsi həmin ərazilərdən kənara daşınaraq avtonəqliyyatın hərəkəti bərpa edilib. Bundan əlavə rayonun Çuxuryurd-Qaleybuqurd, Çuxuryurd-Ərçiman və Çuxuryurd-Talışnuru istiqamətində intensiv yağışlar nəticəsində yaranmış fəsadlar da aradan qaldırılıb.

Tikinti-quruculuq işləri ilə yanaşı, təmizlik və yaşıllaşdırma işlərinin genişləndirilməsi də xüsusi diqqət mərkəzində saxlanılır. Bununla bağlı rayonun idarə və müəssisələrinin iştirakı ilə kütləvi iməciliklər keçirilib, geniş yaşıllaşdırma tədbirləri icra olunub. İməciliklər zamanı Bakı-Yevlax magistral yolunun rayon ərazisindən keçən hissəsində, həmçinin Şamaxı şəhərinin müxtəlif yerlərində 1500-dən çox ağac və gül kolları əkilib. Hazırda həmin yaşıllıqlara lazımi qaydada aqrotexniki qulluğun göstərilməsi işləri davam etdirilir.



Xidmət sahələrində həyata keçirilmiş tədbirlərdən danışan rayon rəhbəri qeyd etdi ki, bu il də rayon ərazisində yeni qazlaşma, bərpa və əsaslı təmir işləri davam etdirilib. Rayonun ən ucqar kəndlərindən olan Dəmirçi qazlaşdırılıb. Hazırda abonentlərin ünvanlarına sayğacların quraşdırılması işləri başa çatmaq



üzrədir. Ötən müddət ərzində 625 sayğac yenisi ilə əvəz edilib, 46 sayğacın yeri dəyişdirilib, qaz sızmalarının qarşısı alınıb. Hazırda rayonun 42 yaşayış məntəqəsində 18 min 203 abonent təbii qazla təmin olunur ki, bu da rayonda olan 20 min 67 təsərrüfatın 90 faizini təşkil edir.

Bu müddətdə "Azərişıq" və Şamaxı Elektrik Şəbəkəsinin balansında olan müxtəlif güclü yeni transformatorlar quraşdırılıb. Həmin transformatorlardan çıxan hava xətlərində 274 istismara yararsız dayaq yenisi ilə, təxminən 7 kilometrlik naqil isə SİP kabellə əvəz edilib. Bundan əlavə, 9 transformator məntəqəsi cari təmir olunub, 770 ədəd sıradan çıxmış sayğac yenisi ilə əvəz edilib, 68 yeni sayğac quraşdırılıb.

Rayon əhalisini keyfiyyətli rabitə xidməti ilə təmin etmək üçün bir sıra tədbirlər həyata keçirilir. Şəhər ərazisində yararsız dirəklər yenisi ilə əvəz edilir, sallaq kabellər tənzimlənir, kabel-kanalizasiya quyuları qrunt sularından təmizlənir və kabellərin texniki parametrləri normaya gətirilir.

Şəhərin su təchizatının və kanalizasiya sisteminin yenidən qurulması davam etdirilmişdir. Şəhərdaxili şəbəkə xətlərində təmir işləri aparılıb. Bundan əlavə 1 və 3 saylı su anbarları istifadəyə verilib və bunun nəticəsində şəhərdə 1800 abonentin unvanına sayğaclar quraşdırılaraq içməli su ilə təmin edilib. Artıq 1000 evə su sayğacları quraşdırılıb.

... Şamaxıda gördüyümüz, şahidi olduğumuz, eşitdiyimiz çoxsaylı fakt və rəqəmlərin cüzi bir hissəsi barədə söz açdıq. Amma, söz aça bilmədiyimiz məqamlar da oldu. Sonda o barədə də demək istəyirəm.

İyulun 21-də Heydər Əliyev Mərkəzində Şamaxı Rayon İcra Hakimiyyəti və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şamaxı rayon şöbəsinin birgə təşkilatçılığı ilə ordu sıralarından tərxis olunmuş gənclərlə görüş keçirilirdi. Rayon icra hakimiyyətinin başçısı Asif Ağayevin geniş nitq söylədiyi tədbirdə çox maraqlı çıxışlar oldu. Bunlar öz yerində. Diqqətimi daha çox cəlb edən iki məqam var idi ki, söz tapıb onları qələmə ala bilmirəm. Birinci məqam. Əsgəri xidmətini başa vurub gəlmiş gənclərdən birinin anası da tədbirdə iştirak edirdi. Siz o ananın gözündəki qüruru görəydiniz. İkinci məqam. Rayon ağsaqqallar şurasının sədri Mayıl Alıcanov ordudan tərxis olunmuş həmyerlilərinə müraciət edərək dedi:

– Çox təəssüf ki, erməni faşistləri üzərindəki qələbəmiz sizin əsgər olduğunuz dövrə düşmədi.

Doğrudan, o xoşbəxt gün kimin əsgərlik etdiyi dövrə düşəcək?

Hər halda, şamaxılı gənclər ötən ilin aprel döyüşləri zamanı öz sözlərini deyiblər. Özü də yüksək səviyyədə.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***